

Şahvələd ƏLİYEV

# DOSTLAR

*(Əvvəli ötən sayımızda)*

Axşam yatandan sonra gecənin yarısında Qəmər xanım hövlənək yuxudan ayıldı. Gördüyü yuxu onu dəhşətə gətirmişdi. O, handan-hana özünə gəldi və ağlamağa başladı. Baldızı da tez durdu, onu ağlayan görəndə o da ona qoşulub ağladı. Baldızı ona yalvardı ki, ağlamasın, uşaqlar ayılıb qorxar. Necə yuxu görmüsən danış, xeyirdir inşallah!

Qəmər xanım gözünün yaşını silib danışmağa başladı: - Yuxuda görürəm ki, Əliağa məni və uşaqları götürüb təbiət qoynuna çıxıb və bizi sevdiyi meşəyə gəzməyə aparır. Uşaqlar moruq kollarında qara, yetişmiş moruqları görəndə kola sarı qaçırlar. Əliağa moruqdan yığıb uşaqlara verirdi. Birdən onun ayağı sürüşdü. O, sıldırımdan yuvarlanmamaqdan ötürü kolun budağından bərk-bərk yapışır. Mən ona sarı qaçdım. O, tək əli ilə budaqdan tutub nə qədər çalışdı ki, yuxarı qalxsın, mümkün olmadı. Mən ona kömək etmək istədim. Onun qolundan tutub ha güc vurdum ki, onu yuxarı qalxızım, gücüm çatmadı. Uşaqlar, mən qışqırmağa başladıq, köməyə adam çağırdıq. Heç kim yox idi. Əliağanın tək qolu gücdən düşürdü. Mən də ona kömək edə bilmədiyimdən müvazinətini itirib uçuruma yuvarlandı. Və mən öz qışqırıq səsimə yuxudan oyandım.

Baldızı dedi: -Qəmər, bacım, darıxma, yuxudu da görmüsən, inşallah heç nə olmaz. Səhər açılan kimi zəng edib onula danışarsan. Ürəyini üzmə - deyə ona təsəlli verməyə başladı. Səhər hava açılana qədər Qəmər xanımın gözünə yuxu getmədi. O, pəncərədən bayıra baxıb səhərin açılmağını gözləyirdi.

Səhər açılar-açılmaz Əliağanın telefonuna zəng etdi. Nə qədər zəng etdi cavab verən olmadı. Bərk narahat olan Qəmər xanım saat doqquzda Əliağa müəllimin ofisinə zəng etdi. Katibə telefonu götürdü: - Alo, Lalə, sənsən, Qəmər xanımdı, Əliağa müəllim haradadı, niyə telefona cavab vermir?

- Qəmər xanım, siz narahat olmayın, o Bakıda deyil. Qubaya iki günlüyə istirahətə gedib.
- Bəs niyə cavab vermir?
- Bilmirəm, Qəmər xanım, xəbərim yoxdur.
- Yaxşı, sağ ol.

Cavabdan sonra doluxsunan Qəmər xanım Əliağanın rayonda icra aparatında işləyən qardaşı Vəliağaya zəng etdi: - Alo, eşidirəm, Qəmər xanım, Vəliağadı. Nə olub, niyə ağlayırsan?

- Qardaşından səs-soraq yoxdu, Vəiağa, zəng edirəm cavab vermir. Katibəsi ilə danışdım, dedi ki, o iki günlüyə Qubaya istirahətə gedib.
- Yaxşı, narahat olma, mən aydınlaşdırıb sənə xəbər verərəm.

Qaynı Vəliağa Quba rayon icra aparatı ilə əlaqə saxladı. Məsələnin nə yerdə olduğunu ona bildirdilər. Bu xəbərdən bərk sarsılan Vəliağa Qəmər xanıma zəng etdi. Və ona bildirdi ki, Əliağa Qubada istirahətdə olanda xəstələnib, xəstəxanada müalicə olunur.

Hazırlaşın, gəlib sizi götürüb Bakıya yola düşürük...

Əliağa müəllim hələ ki, həkimlərin səyinə baxmayaraq, ayılmamışdı. Quba rayon icra aparatı, rayon prokurorluğuna, polis rəisinə bu haqda məlumat vermişdi. Onlar reanimasiya otağının qarşısında dayanmışdı. Bu vaxt rayon icra başçısı Hidayət müəllim bura gəldi. Həkim reanimasiya otağından çıxıb icra başçısına yaxınlaşdı və xəstə haqqında ona məlumat verdi: - Hidayət müəllim, sizə deyim ki, xəstə ağır vəziyyətdə xstəxanaya çatdırılıb. Zəhər onun qanına tam sirayət edib. Biz əlimizdən gələni etmişik, əgər o vəziyyətdən çıxıb sağalsa, demək, möcüzə baş verib, bu da ki qalıb Allaha.

Əliağanın başına gələn hadisədən əvvəl onun ürəkdən bağlandığı dostları dünyasını dəyişəndən sonra onda birdən-birə Allaha inam artmışdı və o tam dərk etdi ki, hər şey Allahın qüdrətindən asılıdı. O, tam əminliklə bir daha inandı ki, Allah öz saleh bəndələrini, bütün qəzavü-qədərdən, xətabəlalardan hifs edir. Odur hər şeyi yoluna qoyan, odur hər şeyi bilən, necə ki, müqəddəs kitabımız Quranda Allah buyurur:

"Allahın izni olmadan heç bir müsibət üz verə bilməz. Kim Allaha inam gətirsə, Allah onun qəlbini haqqa doğru yönəldər, Allah hər şeyi biləndir". (Təğahun surəsi, ayə 11).

Orqan işçiləri Əliağanın başına gələn hadisəni araşdırmağa başladılar. Onları, Əliağa ilə istirahətə gedən o üç nəfərin həyatı maraqlandırırdı. Və birinci növbədə onların izinə düşməyi qərara aldılar. Ələxüsus, Alik onların diqqət mərkəzində idi.

Onlar araşdırma aparıb əlaqədar təşkilatlarla əlaqə saxladılar. Alikin dostu Aşotla olan əlaqəsini, hansı hoqqalardan çıxdıqlarını, məhbus həyatı və s. onlara məlum oldu. Və hal-hazırda Aşotun Rostov şəhərində yaşadığını, orada özünə şəxsi aptek açıb fəaliyyətdə olduğunu müəyyənləşdirib, ora getmək qərarına gəldilər. Rəhbərlik bu işi aparan müstəntiqə iki polis əməkdaşı ilə birlikdə mülkü geyimdə Rostov şəhərinə təcili ezam etdi. Onlar Rostov şəhərinə çatan kimi ilk növbədə Rostov şəhər daxili işlərşöbəsinə gedib nə məqsədlə gəlmələrini onlara bildirdilər və Aşot adında bir erməninin bu şəhərdə yaşayıb-yaşamadığını soruşdular.

Orqan işçiləri az bir vaxt ərzində belə bir adamın bu şəhərdə yaşadığını və onun hansı ünvanda açdığı aptekdə işlədiyini bildirdilər.

Müstəntiq onunla gələn iki əməkdaşı ilə taksiyə minib həmin ünvana yollandı və deyilən ünvanda həmin apteki tapdılar. Ancaq aptekin qapısından kağızda "Bağlıdır" yazısı asılmışdı...

Yemək-içmək məclisində Alikin dostları ilə o qədər yeyib-içib, danışıb-güldü ki, bir də ayılanda artıq səhərin açıldığını gördü. Və bu dostlar çox içdiklərinə görə oturduqları kreslolda da yuxuya getdilər. Günorta vaxtı yuxudan ayılıb təzədən yemək-içməyə girişdilər. Alik hava limanına zəng edib Antaliyaya dörd bilet sifariş verdi. Sonra dostu Aşota dedi:

- Aşot, bilirik ki, sənədlərin üstündədir, sən bizim qonağımızsan. Evə pula görə getmək istəyirsənsə, lazım deyil. Nə qədər istəsən bizdə pul var. Puldan ötrü heç narahat olma. Səni özümüzlə aparırıq, vəssalam!

Axşamkı reyslə Antaliyaya uçuruq. Yedikiçdik indi də səfərə hazırlaşmaq lazımdır. Onlar Aşotun maşının həyətə salıb darvazanı bağladılar. Sonra evə girib birinci növbədə milyonları yerbəyer etmək lazım idi. Onlar özlərinə lazım olandan da artıq pul götürüb qalanını gizlədəndən sonra hava limanına yollandılar.

Təyyarə Antaliya şəhərində yerə endi. Dostlar beşulduzlu mehmanxanada özlərinə ayrı-ayrılıqda tək otaqlar alıb yerbəyer oldular. Qaldı nə? Pul var nə qədər desən, yeyib-içmək, kef çəkmək, vəssalam!

Müstəntiq əməkdaşları ilə aptekin bağlı olduğunu görüb ətrafa boylanmağa başladılar. Müstəntiq polis yoldaşlarını burada saxlayıb yaxındakı ərzaq dükanına girdi. Oradan bəzi şeylər alıb onu kağıza bükdürüb bağlatdırdı. Dükançıya öz minnətdarlığını bildirib bayıra çıxdı. Bu dəfə o, aptekə lap yaxın olan təsərrüfat malları satılan dükan girdi. Üzünə yazıq görkəm verərək satıcıya yaxınlaşdı və yalvarıcı tərzdə ondan rus dilində soruşdu: - Qardaş, səndən çox xahiş edirəm, mən Yerevandan gəlmişəm, mənə bu bağlamanı veriblər ki, aptekdə işləyən Aşota çatdırım. Ancaq aptek bağlıdır. Bilmək istəyirəm ki, aptek haçan açılar?

***(Davamı var)***